DOI: https://doi.org/10.36719/2789-6919/45/152-156

**Ülkər Ramazanova**
Xəzər Universiteti
magistrant
https://orcid.org/0009-0002-1464-0255
ulkerramazanova7@gmail.com

# Qızların təhsildən yayınma səbəbləri: sosial və mədəni faktorların təhlili

## Xülasə

Bu məqalədə qızların təhsildən yayınma səbəbləri ətraflı şəkildə təhlil olunur və bu problemin fərdi və ictimai səviyyədə yaratdığı sosial, iqtisadi və mədəni təsirlər araşdırılır. Araşdırmanın əsas məqsədi qızların təhsildən yayınmasının arxasında duran əsas amilləri müəyyən etmək və bu problemin aradan qaldırılması üçün tövsiyələr irəli sürməkdir. Ailədaxili münasibətlər, erkən nikahlar, sosial stereotiplər, maddi çətinliklər və valideynlərin təhsilə münasibəti kimi amillər bu prosesdə əsas rol oynayır. Əldə olunan nəticələr göstərir ki, bəzi ailələrdə qız uşaqlarının təhsili önəmli sayılmır və onlar erkən yaşlardan ev işlərinə istiqamətləndirilir, bu da onların məktəbdən uzaq qalmasına səbəb olur. Eyni zamanda, təhsil sistemindəki çatışmazlıqlar, hüquqi mexanizmlərin zəifliyi və maarifləndirmə işlərinin kifayət qədər aparılmaması da problemi dərinləşdirir. Məqalədə həm yerli, həm də beynəlxalq statistik məlumatlar əsasında problemin miqyası və qlobal əhəmiyyəti ön plana çəkilir və bir sıra ölkələrdə tətbiq edilən uğurlu layihələr də nümunə kimi təqdim olunur. Məqalənin sonunda isə dövlət, cəmiyyət və ailə arasında əməkdaşlığa əsaslanan, qızların təhsilə bərabər çıxışını təmin etməyə yönəlmiş tədbirlər irəli sürülür. Bu tədqiqat qızların təhsil hüquqlarının pozulmasının əsas səbəblərini ortaya çıxarmağı hədəfləyir.

***Açar sözlər:*** *Təhsildən yayınma, gender bərabərsizliyi, erkən nikah, təhsil hüquqları, maarifləndirmə, qadın təhsili, təhsilə çıxış imkanları*

**Ulkar Ramazanova**
Khazar University
Master student
https://orcid.org/0009-0002-1464-0255
ulkerramazanova7@gmail.com

# The Reasons for Girls Dropping out of Education: An Analysis of Social and Cultural Factors

## Abstract

This article provides a comprehensive analysis of the reasons behind girls dropping out of education and examines the social, economic, and cultural consequences of this issue at both individual and societal levels. The main objective of the research is to identify the underlying factors contributing to girls’ disengagement from education and to propose recommendations for addressing the issue. Family dynamics, early marriages, gender stereotypes, financial difficulties, and parental attitudes toward education play a key role in this process. Findings reveal that in many families, girls’ education is not prioritized, and they are often assigned household responsibilities from an early age, leading to school dropouts. Furthermore, deficiencies in the education system, weak legal mechanisms, and a lack of awareness campaigns deepen the problem. The article highlights the scale and global relevance of the issue using both local and international statistical data. Successful programs implemented in various countries are presented as models of good practice. In the conclusion, the article proposes practical steps based on collaboration among the government, society, and families to ensure equal access to education for all girls. This research aims to contribute to the protection of girls' right to education and support the creation of inclusive, equitable educational environments.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

***Keywords:*** *Educational disengagement, gender inequality, early marriage, educational rights, enlighten, female education, access to education*

## Giriş

Təhsil, xalqların sosial, mədəni və iqtisadi rifahının yüksəlməsində çox önəmli bir faktordur. Cinsiyyətindən asılı olmayaraq təhsil prosesində bərabərliyi təmin etmək həm işçi qüvvəsi, həm də qərar qəbul edilməsi baxımından faydalıdır. Belə ki, oğlanların təhsil alması ilə yanaşı, qadınların da təhsilli olması gələcək nəsillərin daha yüksək uğur əldə etməsinə və cəmiyyətin iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına töhfə verir (Schultz, 2001).

Fərdlərin bioloji və mədəni fərqlilikləri hər bir cəmiyyətdə müxtəlif bərabərsizliklər yaradır. Bu bərabərsizliklər, ümumiyyətlə, iqtisadi, siyasi və mədəni həyatda fərdin resurslara çıxışı və sahibliyi baxımından özünü göstərir. İctimai quruluşun yaratdığı bu bərabərsizliklər ənənəvi xarakter daşıyan cəmiyyətlərdə normal və lazımlı bir vəziyyət kimi görünür, adət-ənənələr, dəyərlər və inanclar tərəfindən də dəstəklənir və qorunur (Kurtdaş, 2021, s. 113).

Bütün vətəndaşların təhsil hüququnun təmin edilməsi dövlətlərin müstəqilləşməsi və milliləşməsi ilə ortaya çıxmışdır. Ancaq qanun qarşısında hər kəsin təhsil almaq hüququnun olması, bu qanunun problemsiz yerinə yetirildiyi anlamına gəlmir. Bir çox sahələrdə olduğu kimi, hətta ən inkişaf etmiş ölkələrdə də təhsil sahəsində müxtəlif səbəblərdən imkan bərabərsizlikləri vardır (Kurtdaş, 2021, s.114). Dünya Təhsil Hesabatı araşdırması qadınların formal təhsildə iştirakı zamanı balanssızlıq olduğunu göstərir. Bu hesabatda qeyd olunur ki, dünyadakı qadınların savadlılıq səviyyəsi kişilərə nisbətən xeyli aşağıdır. Bundan əlavə Birləmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Məsələlər Departamentinin 2010-cu ildə təqdim etdiyi statistikaya görə, dünyada 774 milyon savadsız yetkin insan var ki, bunun da üçdə ikisini qadınlar təşkil edir. Daha da pisi odur ki, ibtidai təhsildən orta və ali təhsilə keçərkən, kişilər və qadınlar arasında daha önəmli bir cinsiyyət fərqi vardır (Dollar, Gatti, 1999).

Bütün şagirdlər üçün əlçatanlığının təmin olunması lazım olan təhsil prosesi, hər bir uşağın inkişafında çox önəmli yerə sahibdir. Səbəbi nə olursa olsun hər hansı bir şagirdin təhsildən kənarda qalması arzuolunmaz bir vəziyyətdir (Eryılmaz, Kartal, 2022).

**Tədqiqat**

Qızların təhsildən yayınmasında sosial və mədəni faktorlar. Dünya üzrə müxtəlif cəmiyyətlərin təhsil və mədəni səviyyəsi bu cəmiyyətdə uşaqlara eyni səviyyədə təhsil verilib-verilməməsi, cinsiyyətindən, yaşadığı ərazidən asılı olmadan bütün uşaqların təhsilə əlçatanlıq dərəcəsi ilə ölçülür. Təhsil hər bir cəmiyyətin gələcəyi və inkişafı üçün çox vacib elementlərdən biridir ki, gənc əhalisi çox olan cəmiyyətlərdə təhsil problemlərindən biri də icabari təhsil səviyyəsində qeydiyyat, davamiyyət və təhsili bitirmək sahələrində yaşanır. Hər bir ölkədə icbari təhsilin qanunla qorunmağına baxmayaraq, əhalinin və xüsusilə, qadınların təhsili hələ ki, arzu olunan səviyyəyə çatmamışdır (Tunç, 2019, s. 238).

Ənənəvi patriarxal strukturlarda qadınların təhsilini gərəksiz və bəzən hətta təhlükəli hesab edən kişilər birbaşa qızların təhsilini qadağan edə və ya buna müxtəlif yollarla əngəl törədə bilir. Əsasən, kənd yerlərində son illərdə təhsil imkanlarının yaxşılaşdırılmasına baxmayaraq, bu imkanlardan daha çox oğlanların yararlandığı, qız uşaqlarının təhsilinə isə ana-ata tərəfindən ancaq müəyyən yaşa qədər icazə verildiyi gerçəyi, kənd və şəhər arasında cinsiyyət – təhsil əlaqəsinin mədəni səbəblərdən qaynaqlandığını ortaya qoyur. Xüsusilə, kənd təsərrüfatı fəaliyyətinin intensiv olduğu yerlərdə ödənişsiz ailə işçisi kimi istifadə edilən uşaqların məktəbə getməsi işçi qüvvəsi itkisinə səbəb olur ki, bu da ailə üçün maddi yük yaradır. Qız və oğlan uşaqları arasında seçim edərək uşaqlarından bəzilərinin təhsil alma imkanlarını təmin edə bilən ailələr isə, bu seçimdə qız uşaqlarını arxa planda saxlayaraq, məhdud sayda olan imkanlarını oğlan uşaqları üçün istifadə edirlər. Yeniliyə açıq olmayan cəmiyyətlərdə ənənəvi düşüncə tərzi olaraq, oğlan uşağının ailənin təməli kimi, qız uşağının isə daimi olmayan ailə üzvü kimi görülməsi səbəbi də təhsil alma prosesində cinsiyyət fərqliliklərinə gətirib çıxarır (Cansever, Erol, 2016, s.391-392). Orta məktəbə getməmək oğlan şagirdin şəxsi istəyi ilə daha çox bağlıdır. Qızlarda isə bu hal fərqlidir, məktəbi tərk etmək onların iradəsindən kənar baş verir (Tunç, 2019).

Bunlarla bərabər məktəblərdə lazımi şəraitin olmaması, intizam təcrübələri, şagirdlərin göstərdikləri davranış problemləri, yaşadıqları çətinliklər və zorakılıq da məktəblə əlaqəli səbəblər

arasında göstərilir. Məktəbə getmək üçün yol problemləri, məktəbin uzaq ərazidə yerləşməsi, məktəb dəyişdirmə, məktəb rəhbərliyinin mənfi münasibət və davranışları, şagirdlərin təhsilə və məktəbə yüklədikləri məna da təhsildən yayınmanın əsas səbəbləri arasında yer alır. Baxılan araşdırmalara görə mühitin təsiri ilə ortaya çıxan ən önəmli nəticə dostların təsiridir. Bununla bərabər sosial çevrədən təcrid olunma və qız-oğlan dostluğunun emosional formaya çevrilməsi də mühitin təsiri ilə nəticələnən təhsildən yayınma formasıdır. Ailələrin, cəmiyyətdəki ümumi baxışın və xüsusilə adət-ənənələrin şagirlərin qurduğu dostluqdakı rollar üzərində təsirinin böyükdür. Şagirdin istənilməyən dostluqlar qurmasının səbəbini məktəb mühitində görən valideynlər, bunun adət-ənənələrə və gündəlik yaşama uyğun olmadığını bildirərək, şagirdi bu dostluqlardan "xilas etmək" adı ilə övladını məktəbdən çıxarmaq istəyir (Bayhan, İşıtan, 2010).

Nəzərdən keçirilən tədqiqatların nəticələrinə görə, dərslərdən yayınma və məktəb mühitinə baxış forması fərdi əsaslı səbəblərin ən önəmli və təsirli olan forması kimi görünür. Bunlarla bərabər sinifdə qalmaq, məktəbə uyğunlaşmaq, öyrənmə prosesində çətinlik çəkmək, uğursuz olmaq qorxusu, özünü tənha və dəyərsiz hiss etmək, özünə hörmət, özünə inam problemləri yaşamaq da təhsildən yayınmaya səbəb olan fərdi faktorlardır. Həm də cinsiyyət, evdən qaçmaq, erkən yaşda evlilik, pis vərdişlər də məktəbdən uzaqlaşmağa gətirib çıxaran fərdi səbəblərdəndir (Eryılmaz, Kartal, 2022).

Oğlan və qız uşaqlarının təhsil almasının sosial faydaları eynidir, ancaq qız uşaqlarının fərqli ailənin üzvü ola bilmək ehtimalı, ailələri daha çox oğlan uşaqlarını təhsilə cəlb etməyə yönləndirir. Çünki ailələrə görə oğlan uşağı, yaşlandıqda özlərinə baxacaq biri olaraq görülür ( Berber, 2021). Qız uşaqlarına isə heç bir şeydən məlumatı olmayan, xarici dünya ilə əlaqəsiz və təcrübəsiz canlılar kimi baxılır. Buna görə də qızların zəif xüsusiyyətli olduqları və çox asan formada aldadıla bildikləri qəbul olunur. Məktəb mühitinin və yaxud xarici dünyanın qızlar üçün təhlükələrlə dolu olduğu fikirləri müdafiə edilir. Bunu isə qadınlara yaxşılıq etmiş kimi təqdim edərək onların inkişaf etməsinə və dəyişilməsinə maneə yaradırlar (Tunç, 2019).

Araşdırmalara əsasən, məlum olmuşdur ki, valideynlər qız uşaqlarını məktəbdən yayındırmaq üçün bir çox müxtəlif bəhanə göstərmişdirlər ki, bunlara da qızların tərbiyə və ədəb qaydalarına uyğun formada məktəbə getməsinin mümkün olmaması, ətrafı tərəfindən qınanmaya məruz qalmaq, qız uşaqlarının sadəcə oxuma və yazmanı bilməsinin yetərli olması, qız uşaqlarına inanmamaq, qızların yeniyetməlik yaşına çatdıqda oğlanlarla eyni mühitdə olmasının mənfi nəticələrinin ola bilməsi, ailələrin qız uşağının oxumaq istəməsini dəstəkləməməsi və s. aiddir (Tunç, 2019).

Qızların təhsildən yayınmasının səbəblərindən biri olan erkən nikahın qarşısının alınması istiqamətində dünya ölkələrində bir çox işlər görülməsinə baxmayaraq, azyaşlı qızların zorla evliliyə cəlb edilməsi halları hələ də mövcuddur. Həm beynəlxalq sənədlərdə, həm də ölkələrin milli qanunvericiliklərində qadağalar qoyulsa da, bütün bunlar problemin həlli üçün kifayət etmir. Bir çox hallarda erkən nikah, cəmiyyətin düşüncə tərzinin, adət-ənənələrin mənfi təsiri kimi ön plana çıxır. Bu da qızların təhsil almasında, iqtisadi, siyasi həyatda iştirak etməsində maneə yaradır (Əzimova, 2020).

**Cədvəl 1.** Nikahları rəsmi qeydə alınmış 18 yaşadək gəlin və bəylərin sayı:

| **İllər** | **18 yaşadək gəlinlərin sayı** | **18 yaşadək bəylərin sayı** |
|---|---|---|
| 2012 | 295 | 5 |
| 2013 | 229 | 2 |
| 2014 | 479 | 2 |
| 2015 | 388 | 3 |
| 2016 | 312 | 3 |
| 2017 | 317 | 1 |
| 2018 | 338 | 0 |
| 2019 | 366 | 1 |
| 2020 | 165 | 0 |
| 2021 | 137 | 1 |
| 2022 | 270 | 0 |
| 2023 | 223 | 0 |

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2024), Azərbaycanda qadınlar və kişilər, rəsmi nəşr, 259 səh.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin təqdim etdiyi hesabata nəzər salsaq görərik ki, oğlanların erkən yaşda nigaha cəlb edilmə sayı ilə, qızların erkən nigaha cəlb olunma sayı arasında çox böyük fərq vardır. Həmçinin, bu fərq 2012-2023 illəri aralığında oğlanlarda 5 nəfərdən 1-0 nəfərə qədər azalsa da, qızlarda sadəcə bəzi illər ərzində az miqdarda azalma müşahidə olunur. Belə ki, əksər halllarda nikaha daxil olduqdan sonra təhsil prosesinin dayandığını nəzərə alsaq, bu nikahların birbaşa olaraq qızların oğlanlara nisbətdə daha çox təhsildən yayınmasına gətirib çıxardığını deyə bilərik.

"Uşaq hüquqları haqqında" qanununun 22-ci maddəsinə əsasən, hər bir uşağın Azərbaucan Respublikasının təhsil qanunvericiliuinə görə təhsil almaq hüququ var. Bu qanunun tərkib hissəslərindən biri də uşaqların icbari ümumi orta təhsildən yayındırılmasının qadağan olunmasıdır. Amma bütün bunlara baxmayaraq, təhsildən uzaq qalan bir çox uşaq vardır ki, bu da yüzlərlə, minlərlə gəncin gələcəuini məhv etmək deməkdir. Ölkəmizdə erkən yaşlarda qız uşaqlarının valideylərinin təsiri ilə təhsildən kənarlaşdırılması hallarına rast gəlinir. Son illərdə qızların təhsildən yayındırılaraq erkən nikaha cəlb olunması ilə bağlı maritorinqin nəticələri otaya qoyur ki, ailələlərin savadsızlığı və maarifləndirmənin az olması bu faktoru artırır (Məmmədova, 2024, s. 980).

Dünya üzrə 15-19 yaş aralığıda olan hər 4 qızdan biri işsizdir və təhsil ala bilmir. Hazırda dünyada 130 milyon qız müxtəlif səbəblərdən məktəbə gedə bilmir. Gender bərabərsizliyi pandemiyadan əvvəl də çox geniş yayılmış formada olmuşdur, belə ki, pandemiyanın mənfi təsirləri ilə birgə bu hal daha da artdı. Pandemiyadan sonra 11 milyon qızın məktəbə dönə bilməyəcəyi təxmin edilir. Həyata eyni imkanlarla başlamasalar da, gələcəkdə cinsindən asılı olmadan fərdlər üçün bərabər imkanların təmin edilməsi, bizə qızların, qadınların və hətta kişilərin, bir sözlə dünyadakı hər kəsin həyatını yaxşılaşdırmaq imkanı verə bilər. Bu gün dünyada 600 milyon yeniyetmə qız yaşayır ki, onlar tarixdə ən böyük qadın liderlər nəslini yaradacaqlar. Sadəcə bunun üçün bir şərtin təmin edilməsi lazımdır: Əgər biz qızlar üçün lazımi imkanları yaratsaq və düzgün bacarıqları formalaşdırsaq (Unicef, 2022).

Təhsil almaq hüququnun tətbiqində yaşanan bərabərsizliklər ümumiyyətlə iqtisadi, coğrafi, siyasi, sosial və fərdi xarakter daşıyır. Sosial amillərdən biri olan cinsiyyət də təhsil almaq imkanlarına təsir edir. Buna görə bütün dünyada təhsil imkanları və onlardan yararlanma prosesində keçmişdən indiyə kimi kişilər və qadınlar arasında bərabərsizlik vardır ki, bu da qadınların sosial həyatda ikinci planda qalmasına səbəb olur. Bu bərabərsizliyi aradan qaldırmaq onun təməlində duran əsas səbəbi düzgün təsbit etmək və bu mövzuda düzgün həll yollarını hazırlamaqla mümkün ola bilər. Digər sahələrdə olduğu kimi, təhsil sahəsində də mövcud olan genderəsaslı problemlər "sosial cinsiyyət" anlayışı ilə izah edilə bilər (Kurtdaş, 2021, s.114).

Gender bərabərsizliyi və keyfiyyətli təhsilin məqsədi bütün oğlan və qız uşaqlarının təhsilə və sosial həyata çıxışını təmin etməkdir. BMT üzvü olan 193 dövlətin və 23 beynəlxalq təşkilatın əldə etmək üçün qarşıya qoyduğu Minilliyin İnkişaf Məqsədləri nəticəsində 2000-ci illərin başlanğıclarından etibarən qız uşaqları üçün təhsilə çıxışın əlçatanlığı yolunda bir çox nəaliyyətlərə imza atılmışdır (Çolak, İşeri, 2022, s. 25).

## Nəticə

Qızların təhsildən yayınması bir çox kompleks və bir-biri ilə sıx şəkildə bağlı olan iqtisadi, mədəni və sosial faktorlarla əlaqələnir. Ən önəmli səbəblər arasında ailədaxili münasibətlərdəki ənənəvi düşüncə tərzi, erkən nikahların artması, maddi imkanların məhdud olması, valideynlərin təhsilə yanaşma forması və cəmiyyətdə mövcud olan gender stereotipləri xüsusi yer tutur. Bu faktorlar qızların məktəbdən kənarda qalmasına, təhsil alma imkanlarının məhdudlaşmasına və nəticə olaraq onların cəmiyyətin tamhüquqlu üzvü kimi inkişaf etməsinə mane olur.

Bununla bərabər, dövlət səviyyəsində yerinə yetirilən bəzi tədbirlər, mövcud hüquqi və inzibati mexanizmlər hələ də bu problemin tam formada həlli üçün təsirli nəticələr vermir. Təhsil sistemindəki bəzi boşluqlar, regionlararası bərabərsizlik və maarifləndirmə işlərinin yetərili olmaması vəziyyəti daha da çətinləşdirir. Buna görə də, problemi həll etmək üçün hərtərəfli yanaşma tələb olunur. İlkin olaraq, ailələr arasında təhsilin əhəmiyyəti mövzusunda mütəmadi maarifləndirmə işləri aparılmalı, erkən nikahların qarşısını almağa yönəlmiş hüquqi tədbirlər daha da gücləndirilməli və maddi çətinlik çəkən ailələrə sosial yardım proqramları vasitəsilə dəstək verilməlidir. Eyni zamanda, təhsil

müəssisələri gender bərabərliyinin təmin edilməsinə stimullaşdırılmalı və qızların təhsildə iştirak etməsini təşviq edən proqramlar tətbiq olunmalıdır.

Qızların təhsildən yayınmasının qarşısını almaq üçün sadəcə bir tərəfin deyil, həm dövlətin, həm ailənin, həm də cəmiyyətin birgə çalışması vacibdir.

Qızların təhsildən yayınmasının qarşısını almaq üçün sadəcə bir tərəfin deyil, həm dövlətin, həm ailənin, həm də bütövlükdə cəmiyyətin birgə məsuliyyəti daxilində mümkündür. Qız uşaqlarının təhsil hüququnun qorunması cəmiyyətin gələcəyi üçün mühüm əhəmiyyət daşıyır və bu istiqamətdə atılacaq hər bir addım inklüziv və davamlı inkişafın təmin olunmasına xidmət edəcəkdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2024). *Azərbaycanda qadınlar və kişilər*.
2. Berber, B.Z. (2021). Eğitimde toplumsal cinsiyet eşitsizliğini giderme yolları. *Uluslararası Türkçe Edebiyat Kültür Eğitim dergisi,* 10(3), s.1215-1223.
3. Bayhan, P., İşıtan, S. (2010). Ergenlik döneminde ilişkiler: akran ve romantik ilişkilere genel bakış. *Aile ve toplum eğitim-kültür ve araştırma dergisi,* 5(20), s.33-44.
4. Cansever, A.B., Erol, Ö. P. (2016). Bir toplumsal hareketlilik aracı olarak kız çocuklarının eğitimi. *Hitit Üniversitesi Sosyal bilimler enstitüsü dergisi*, 9(1), s.379-400. doi: https://dx.doi.org/10.17218/husbed.18192
5. Çolak, İ., İşeri, T.E. (2022). Kadınların okulu terk etme nedenleri ve kız çocuklarının eğitimine ilişkin görüşleri. *Mehmet Akif Ersoy Üniversitesi Eğitim fakültesi dergisi,* (64), s.24-50. DOI: 10.21764/maeuefd.944047
6. Dollar, D., Gatti, R. (1999). Gender inequality, income and growth: are good times for vomen? Policy research report on gender and development. *Working Paper Series,* (1), The World Bank.
7. Eryılmaz, B.F., Kartal, S. (2022). Okul terki araştırmaları: sistematik bir analiz çalışması. *Kırıkkale Üniversitesi Sosyal bilimler dergisi,* 10(2), s.257-278.
8. Əzimova, S. (2020). Erkən nikah probleminin yaranmasinda və davam etməsində gender bərabərsizliyinin rolu. "*Elmi iş"Beynəlxalq Elmi Jurnal.* 10(59), s.93-97. DOI: 10.36719/2663-4619/59/93-97.
9. Kurtdaş, E. M. (2021). Eğitimde cinsiyyet temellli fırsat eşitsizliği. *Sosyolojik düşün,* 6(2), s.113-144. https://doi.org/10.37991/sosdus.1020228
10. Məmmədova, S. (2024). Sosial problem kimi təhsildən yayınma halları. *Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu,* https://www.utudas.org/DergiPdfDetay.aspx?ID=419
11. Schultz, T. P. (2002). Why governments should invest more to educate girls, *World Development,* 30(2), s.207-225. DOI: 10.1016/S0305-750X(01)00107-3 Source: RePEc
12. Tunç, İ.A. (2009). Kiz çocuklarının okula gitmeme nedenleri Van ili örneği. *Yüzüncü yıl üniversitesi, Eğitim fakültesi dergisi,* 6(1), s.237-269.
13. UNESCO. (2018). *Global Education Monitoring Report Gender Review. Meeting Our Commitments to Gender Equality in Education.* https://unesdoc.unesco.org/ark:/48223/pf0000261593
14. Unicef. (2022). https://www.unicefturk.org/yazi/8-duenya-kiz-cocuklari-konferansindan-duenyaya-cagri

Daxil oldu: 11.02.2025
Qəbul edildi: 21.05.2025